# Azərbaycan lirik nəsrində milli xarakter problemi

**Sevinc Beydulla qızı Kazımova**
*AMEA-nın Nizami Gəncəvi adına*
*Ədəbiyyat İnstitutunun elmlər doktoru*
*proqramı üzrə dissertantı,*
*filologiya üzrə fəlsəfə doktoru, dosent*
**E-mail:** sevinckazimova15@gmail.com

**Rəyçilər:** filol.ü.f.d., dos. E.Ə. Mustafayeva
filol.ü.f.d., dos. F.N. Abdurəhmanova

**Açar sözlər:** fərdi üslub, aktuallıq, cəmiyyət, şəxsiyyət, insan amili
**Ключевые слова:** индивидуальный стиль, актуальность, общество, личность, человеческий фактор
**Key words:** individual style, relevance, society, personality, human factor

Sabir Azərinin yaradıcılığında konyuktura ilə yazılmış əsər, ayrı-ayrı süjet xətləri, epizod tapmaq demək olar ki, qeyri mümkündür. Onun əsərlərində daha çox psixoloji həyatilik və dərinlik ön plandadır. Bu cəhətlər isə əsərin janr xüsusiyyətlərinə uyğun olaraq tətbiq edilir. Sabir Azərinin ədəbi fəaliyyətinin böyük bir qismi sovet dövrünə təsadüf etmişdir. Əvvəldə də qeyd olunduğu kimi yazıçı üçün əsas olan mövzu aktuallığı deyil, düşündürücü problemlərin təsviri idi. Buna görə də sovet rejiminin mövzularından tamamilə uzaq qalmışdır. Sabir Azəri sovet rejimində olduğu kimi, bu rejimdən sonra da orijinal, sabit yazıçı təcrübəsinə, qələminə, şəxsi ləyaqətinə, vətəndaş cəsarətinə sadiq qalıb yazıçılıq fəaliyyətini davam etdirmişdir.

Sabir Azərinin əsərləri sağlığında on min tirajla Bakıda, Moskvada, eləcə də keçmiş sovetlərin ayrı-ayrı müttəfiq respublikalarında tərcümə edilərək otuz dəfədən çox nəşr olunmuş, böyük oxucu kütləsi qazanmışdı. ““Dalanda” romanı 1990-cı ildə Moskvada “Sovetski pisatel” nəşriyyatında rus dilində nəşr olunduqdan sonra üç milyondan çox tirajı olan “Roman-qazeta”da da yayımlanmışdı”.

Özünə yol açıb forma yaradan hər bir ədəbi növ gerçəkliyin tələblərinə əsaslanır. Yazıçının yaradıcılıq üslubu, janr, forma və ədəbi ənənə bir-birilə vəhdət təşkil edir. İdeoloji şərait, dövrün estetikası və yazıçının mövqeyi də janr formasının yaranmasında mühüm rol oynayır. Janr strukturu həyat və bədii tələbat nəticəsində yaranır, dövrdən-dövrə, yazıçıdan-yazıçıya keçir. Bu isə o deməkdir ki, yazıçı mövcud olan, qəlibləşmiş janr strukturundan elə istifadə etməlidir ki, nə mövcud qanun çərçivəsindən kənara çıxsın, nə də asana qaçsın.

Başlıca predmeti cəmiyyət və şəxsiyyət münasibətlərinin dərin və hərtərəfli təhlili olan roman ədəbiyyatın ən seçkin janrlarından biridir. Bu janrın vasitəsilə cəmiyyətin daxili halında, tərəqqiyə səbəb olan və onu ləngidən amillər aydın görünür. “Roman çoxdillidir, daha doğrusu, o mövcud dillərin mübarizə meydanıdır. Cəsarətlə demək olar ki, bir poetik janr kimi roman yeni dövrün bütün əsas hadisələrinə, bu hadisələr arasında təbii əlaqələrin mövcudluğunu təmin edən müvafiq anlayışlara çevrilərək, onlar haqqında bir bütöv söz kimi çıxış edir. Bütün yerdə qalan digər janrlar bir nəhəng okean kimi gəlib roman janrına qovuşur, onunla dialoqa girərək, canlılıq qazanır, bətnindəki enerjini təzələyir” (2, s. 114).

Romanda qəhrəmanın hərəkəti subyektiv səylərə əsaslanır və dünyanı dəyişdirmək, islah

etmək, yaxud da şəxsi həyatını yaxşılaşdırmaq və s. kimi nəticələr doğurur. Romanda xarakterin inkişafı antik xarakterlərin "bilmədiyi" səmtə doğru gedir. Yəni hadisənin zahiri hərəkəti deyil, subyektin daxili həyatının inkişafı üstünlük təşkil edir.

Həcm etibarı ilə demək olar ki, eyni olan roman və povest barədə çox vaxt yanlış bir təsəvvür yaranır: povest kiçik roman hesab olunur. Povest rus ədəbiyyatının janrıdır: "Povestvovanie" sözündədir, yəni "nəql etmə" deməkdir. Roman isə daha geniş çərçivəli nəsr əsəridir. Dramatik taleyi təsvir edir, eyni zamanda həm də tarixi dövrü özündə əks etdirir. Əsasında ideya duran roman janrını qlobal problemlər, yaxud aktual sosial mövzular maraqlandırır. Roman hadisənin təsvir miqyasına görə böyük olur: müxtəlif, qarışıq süjetlər, böyük zaman kəsimi və s. Romanın əsasında bir süjet dayanır və bir neçə süjet xətti onunla birləşir. Bu süjetlər bir-birinə bağlı olur və əsərin vahid kompozisiyasını yaradır.

Roman elə bir janrdır ki, daim oxucunun marağını izləyir, üslub sərbəstliyi ilə fərqlənir. Bunun üçün yazıçı romanını elə üslubda qələmə almalıdır ki, oxucu darıxmasın. Bəzən roman oxumaq bizə asan gəlir və onu adi bir yazı kimi qiymətləndiririk, halbuki, yaxşı romançı olmaq üçün istedadla yanaşı, həm də yaxşı nəzəriyyəçi olmaq labüddür. Düşünürük ki, yazar nəzəriyyə qaydalarını nə qədər dərindən mənimsəyirsə, sözsüz, o dərəcədə də onun romanı oxunaqlı, uğurlu olur. Ədəbiyyat söz sənətidir, təbii ki, onun nəzəriyyəsi də sözə verilən qiymətlə bağlıdır. Yazıçı əsərində hər sözü incəliklə seçməli, onun məna çalarlarında diqqətli olmalı, ideya, mətn, tərbiyəvi nümunə haqqında düşünməli, bədii, etik və estetik cümlələr qurmağa səy göstərməlidir. Çünki əsər təkcə danışılan əhvalatdan yox, həm də bütövlüklə bir bədii nümunə olmalıdır və ona qiymət bütün komponentləri ilə birgə verilməlidir.

Roman janrı üçün xarakterik olan bütün cəhətlər Sabir Azərinin "Dalanda" romanında da öz əksini tapmışdır. Hadisələrə mənəvi-psixoloji aspektdən, təbiət-cəmiyyət prizmasından yanaşılan "Dalanda" romanın ideyasında fərqli dəyərlər qarşı-qarşıya gəlir, sosial mənzərə canlandırılır. Bütün bunların fonunda qəhrəmanların tipik xarakteri verilir və əsas konflikt göstərilir. Sabir Azəri romanında dövrün ab-havasını, tarixini mükəmməl şəkildə qələmə alır və qəhrəmanların psixologiyası, əxlaqı, dünyagörüşü problemi geniş planda təqdim olunur. "Əsl sənətkarın yaradıcılıq yolu həyatın, cəmiyyətin inkişaf mərhələləri ilə bağlı olan əxlaqi-mənəvi problemlərdən ayrı təsəvvür edilmir. Bu problemlər ciddi surətdə yazmağa başladığı ilk əsərlərindən tutmuş, yetkin çağlarında böyük şöhrət gətirən ən qiymətli əsərlərinədək həmişə bu sənətkarın diqqət mərkəzində olur, onu düşündürür, həyəcanlandırır. Tariximizin hansı mərhələsindən bəhs etdiyindən, həyatımızın hansı sahəsini təsvir obyekti kimi seçdiyindən asılı olmayaraq, ədəbiyyatımızın ən yaxşı nümunələrinin hamısında çox vacib əxlaqi-mənəvi məsələlər qaldırılır, insan amili ön plana çəkilir, əxlaq və mənəviyyat məsələləri onun daxili aləminin bədii təsvir vasitəsilə açılıb təqdim olunur" (1, s. 12).

Romanın əsas qəhrəmanı Qafardır. Cəmiyyətdə şəxsiyyətin kökündən uzaqlaşması, valideyn-övlad münasibətləri, şəxsin dəyişməsi və özgələşməsi və.s məsələlər problem kimi ortaya qoyulur və bədii cəhətdən uğurla həll edilir. Bütün bunlar isə əsas qəhrəman Qafarın simasında oxuculara çatdırılır. Hadisələr İçərişəhərin dalanlarından birində təsvir olunur, məkan burada şərti xarakter daşıyır və bütöv cəmiyyəti təmsil edir. Qafar isə bu cəmiyyətdə özünə rahatlıq tapa bilmir. Sanki bu cəmiyyətlə heç bir əlaqəsi yoxdur, burada bir qonaqdır. Qafar adi həyat, məişət çətinlikləri ilə üz-üzə qaldığından özünün həyat prinsiplərindən addım-addım geri çəkilməyə məcbur olur, kirayə qaldığı evin qadını Fəridə ilə evlənir. Əvvəlcə Fəridə ilə münasibətlərinə ötəri bir hiss kimi baxsa da, hadisələr getdikcə daha da dərinləşir. İş o yerə gəlib çatır ki, kənddə qoyub gəldiyi anasını və sevgilisi Gülzarı yaddan çıxarır. Evləndikdən sonra isə Fəridənin çılğın təbiəti, maddi tələbatları, tünd xasiyyəti Qafarı, demək olar ki, hər

gün təzyiq altında qoyur. Fəridə hətta həyat yoldaşının qəzaya düşməsindən də maddi qazanc məqsədi ilə istifadə etməyə başlayır. Övladları da get-gedə analarına oxşamağa başlayırlar. Buna görə də Qafar düşdüyü mühitdə tamamilə çarəsiz vəziyyətdə qalır. Haram mal yeməyə öyrəşməyən və həyatı boyu bu prinsipi öndə tutan Qafar "- Üstünə "haram," "halal" yazılan pul necə, görmüsən? Brilyant üzük, sırğa taxanların, dublyonka, lamayla layka geyinənlərdən hələ heç hansının alnına yazılmayıb ki, onlar hansı pulla alınıb. Heç o şeyləri satanlar da maraqlanmır ki, onlara verilən pul haramdır, ya halal. "Halal" sözünü sənin kimi aciz, əfəl kişilər uydurublar" (3, 146) - deyə onu da bu cəmiyyətin dəyişmiş bir nümayəndəsi etmək istəyənlərlə baş-başa qalır. Bu yolda onu təmənnasız sevən, saflığı, mənəviyyatı pula satmayan iki obraz isə Qafarın anası və qonşuluqdakı yaşlı qadın olur. Şəhərdə qalıb işləmək, qaldığı dar həyət və dalan, işlədiyi arxiv onun həyatını gündən-günə sıxır. Qafar sərbəstliyini, azadlığını itirmək üzrə olduğunun da fərqindədir. Qafarın problemləri yalnız dalanda qalmır, ondan çox kənara çıxır, bütöv bir cəmiyyətin probleminə çevrilir. Məhz bu məqamda yazıçı da öz istəyinə nail olur.

Bu cəmiyyətdə Fəridə də tək deyildir, Yaqublar, Mürşüdovlar, Dursunlar da bu cəmiyyətin keçilməz sədləridir. Bu isə bütöv bir mühit deməkdir, elə bir mühit ki, bu mühitdə pul, var-dövlət insanların əsas məqsədinə, amalına çevrilmişdir, hər şey pula bağlıdır və Qafar bu mühitdə özünü tək, yalnız hiss edir. Bu bütöv cəmiyyətin faciəsidir. Qafar bu cəmiyyətdə axına qarşı gedən tək-tük ziyalılardan biridir, o, təkdir, həyat prinsipləri cəmiyyətin həyat prinsipləri ilə üst-üstə düşmür.

Qafarın doğulub boya-başa yetdiyi mikromühitin əxlaq normaları bir para, ictimai mətləbləri anlamaqda da ona mane olur. Qafarın ailədə, məktəbdə aldığı əxlaq dərsinə görə gərək hamıda vətəndaşlıq hissi güclü olsun, gərək insanlar hər şeydə ilk növbədə cəmiyyətin mənafeyini düşünsün... Lakin real həyatda Qafar başqa vəziyyət görür. Elə buna görə işini çoxdan qurtarsa da, ac və yorğun olsa da, dəniz sahilində bir sualı hey təkrar edə-edə dolaşır: "Kimi aldadırıq?", "Axı, niyə aldadırıq? "Nəyin naminə aldadırıq?" (3, 14).

Qafar bu sosial-mənəvi suallarla çarpışa-çarpışa dalana girir və burda... akademik Mürşüdovun oğlu onu maşınla vurur. Əslində harınlaşmış Mürşüdovlarla ətrafındakı naqisliklərdən baş çıxara bilməyən Qafarın rastlaşması elə belə də nəticələnməli idi. Mürşüdovların nəzərində bu, sırf təsadüfdür, "Allahın işidir". Əslində isə təsadüf deyil, o ərköyün alim oğlu hardasa, kimisə şikəst etməli idi.

Akademik Mürşüdovun oğlu Şərqşünaslıq fakültəsində oxuyur, bu gün-sabah xarici ölkəyə getməlidir, viza da hazırdır, indi işlər pozula bilər... Bunları biləndə Fəridə ərinin şikəstliyini az qala unudur, hətta buna sevinir də. Bu sevincini ərindən də gizlətmir, axır ki, deyir, şikəstliyindən bir xeyir gördük... Bu qəzanı Allah bizə əl tutmaqdan ötrü yollayıb - deyir. Görüb ki, sən ayrı yolla uşaqların xəcalətindən çıxa bilmirsən, ayağını sındırıb ki, onun hesabına günahını bir balaca yuyasan... Beləliklə də, ailənin əsil iç üzü Qafar şikəst yatarkən, ayağı gipsdə qovrularkən açılır. Oxucuda gizli bir ümid, hətta arzu oyanır ki, Qafar sağalanda, bu dəhşətli gipsdən canını qurtaranda burdan baş götürüb qaçacaq!..

Qafar kimdir? İstər həyatda, istərsə də ədəbiyyatda bu tipli insanlarla və obrazlarla çox qarşılaşmışıq. Onlar şəhərdə ömür sürsələr də, buranın mənəvi iqliminə alışa bilmirlər, çaşıb qalırlar, sonra da kor-peşman kəndə üz tuturlar. Qafar da belələrindəndir. Ancaq təbii ki, onu başqalarından fərqləndirən bir xüsusiyyəti qeyd etmək olar - o da bundan ibarətdir ki, Qafar səhvlərini bilə-bilə, dərk edə-edə yaşayır. Qafar çox dözümlü insandır. Bu dözüm və səbr isə onun başına nələr gətirmir... Qafar elə bu dözümlə arvadı Fəridənin dözülməz "fəlsəfəsinə", davranış və rəftar tərzinə uzun müddət müqavimətsiz yaşayır, həmişə belə hesab edir ki,

Fəridə bir gün ağıllanacaq, ailənin maddi imkanlarını nəzərə alacaq.

Evdə, ailədə özünü təmkinli aparan, arvadının mənəvi zülmünə tab gətirən Qafar iş yerində - tikinti sahəsində tamamilə başqa adamdır; o, hər cür əliəyriliyə, bürokratizmə, yarıtmazlığa qarşı kəskin mövqedə dayanır. Romanda Qafarın mübariz keyfiyyətləri ilə bağlı səhnələr az deyil və bu da onu göstərir ki, Sabir Azəri öz qəhrəmanını birtərəfli, sxematik, eyni rəngli təsvirdən çəkinmiş, obrazı bütöv verməyə səy göstərmişdir.

Tikintidə işləməmişdən əvvəl Qafarın ən böyük arzusu elmi işçi olmaq, namizədlik dissertasiyası müdafiə etmək idi. Lakin Qafar bu arzusuna çata bilmir, elmi rəhbəri ona istiqamət verməkdənsə, evinin işlərini gördürür, bazarlığa yollayır, mənliyini təhqir edir. Qafar buradan da qaçmalı olur. Ümumiyyətlə, müəllif öz qəhrəmanını sona qədər belə təmiz və işıqlı göstərir. Qafar həm öz ailəsində - arvadının mənəvi zülmünə tab gətirə-gətirə, onun deyintilərini eşidə-eşidə, həm də işlədiyi yerdə hər cür haqsızlığa sinə gərə-gərə mənliyini, ləyaqətini, mənəvi saflığını qoruyur. Qəza hadisəsindən sonra həkim ona deyir: "... hər halda iki şeydən birini seçməlisiz: ya emosional olub az yaşamağı, ya da emosiyadan əl çəkib uzun ömür sürməyi..." (3, 202).

Lakin Qafar kimilər emosiyasız yaşaya bilməzlər. Baş verən qəza hadisəsi Qafarın gözlərini açır, onda arvadı Fəridəyə qarşı münasibətlərində tam aydınlıq yaranır. Əslində, qəza Qafarın içində baş verir, o, qəti qərara gəlir ki, bu tragik vəziyyətə son qoysun. Vaxtilə, o, gənclik hisslərini ayaqlayaraq tanımadığı, xasiyyətinə bələd olmadığı, yalnız bədəninə vurulduğu Fəridəylə evlənmişdi, elə bu səbəbdən kəndindən, yaxın adamlarından, doğmalarından, ilk sevgisindən ayrı düşmüşdü. Qəza hadisəsindən sonra ... sağaldıqda ... Qafar bir daha bu evə ayaq basmır, kəndə, ata-baba yurduna üz tutur. Əlbəttə, Qafarın evdən çıxıb getməsinin çox incə, psixoloji cəhətdən tutarlı bir səbəbi də var: Fəridənin birinci əri üçün qara geyib yas saxlaması, hətta qəbiristanlıqda onun məzarı yanında özünə yer hazırlatması Qafara məlum olduqda o, artıq bu ailəylə bağlı son ümidlərini də dəfn edir.

Fəridə də bir obraz kimi təbii və inandırıcı verilmişdir. Onun da özünə görə faciəsi və günahı var. Faciəsi odur ki, işıqsız, idealsız yaşayır - bu cür yaşamaq, başqaları ilə istədiyi kimi rəftar eləmək, heç kimlə hesablaşmamaq, mümkün qədər çox qoparmaq onun həyat məqsədini də müəyyənləşdirir. Günahı da odur ki, təmiz bir insanın həyatını heçə sürükləmək istəyir. Qəza hadisəsi ilə əlaqədar, romana Mürşüdovlar xətti də əlavə olunur. Mürşüdovlar varlı-karlı insanlardır, istədikləri kimi yaşayırlar, onlar hər tərəfə qol-budaq atmışlar, zəngin və dəbdəbəli həyat tərzi keçirirlər, qarşılarına xoşagəlməz bir hadisə çıxanda vəziyyətdən qurtulmağı da ustalıqla bacarırlar. Ancaq bu adamlar mənəvi işıqdan məhrumdurlar.

Romandakı bütün obrazlar kimi Fəridə də çox təbiidir, ziddiyyətlidir. Əslində onun arzusu da başa düşüləndir: istəyir ki, çoxlu pulu olsun, firavan yaşasınlar. Bunun üçün özü işdən sonra evdə də ona-buna paltar tikir. Ancaq ailənin maddi ehtiyacı ödənilmədiyinə görə ərlə-arvad arasındakı pərdə sürətlə götürülür. Fəridə uşaqlarının yanında ərini təhqir edir. Qafar isə az qala yalvarır ki, belə yaramaz, qətiyyən yaramaz, çünki bu yolla sən uşaqların tərbiyəsini pozursan, sonra qabaqlarını ala bilməyəcəyik, üzümüzə ağ olacaqlar...

Fəridənin əksi olan, Qafarın anası Gülsafa obrazı isə öz öz əxlaq kodeksinə görə bəlkə də bəzi qadınlara nümunə ola bilər. Əri Mahmud öləndən sonra Gülsafa evin həm ağsaqqalı, həm də ağbirçəyidir. Həmişə uşaqları bir yerə yığmağa, onların mənən monolitliyini qorumağa çalışır. Əlbəttə, ana istəyir ki, oğlanlarından biri, ilk növbədə Qafar evin ağsaqqallığını boynuna götürsün, amma böyük oğlu bunu edə bilmir, çünki ağsaqqallıq son dərəcə ağır bir yükdür... Oğlanları bir yerə yığılan kimi, Gülsafa onları evin böyründəki qara əncirin altına toplayır. Bunun da simvolik mənası var, Gülsafanın evi köhnədir, divarı yarılıb, qəflətən uça bilər. Ana

əvvəlcə böyük oğluna dərdini açır, çat vermiş yeri göstərib xatırladır ki, onu təzələmək lazımdır... Qafar da bunu gözəl bilir, onun da ürəyindən keçir ki, ata yurdunda təzə mülk ucaltsın. Lakin buna maddi imkanı yoxdur... Sonra, növbə ilə, ana dərdini o biri oğlanlarına açır... Onlardan da əlini üzəndən sonra Gülsafa dünyada ən böyük arzusunu oğul nəvələrinə açmağa başlayır, indi də onlara pənah gətirir: "- Tikdir, qadan alım, tikdir başına dönüm, qoy mən də bu dünyadan namuraz köçmüyüm..." (3, 235). Gülsafaya elə gəlir ki, qara əncirin altındakı söhbətləri əri Mahmud da eşidir və balaca nəvəsinin təsəllisi ona da əyan olur: onun yurdunda mütləq təzə ev tikiləcək...

Sabir Azəri romanda çox ciddi mənəvi-əxlaqi, sosial problemlərə toxunsa da, rəngləri heç vaxt süni şəkildə tündləşdirmir. Yəni bu problemləri faciəyə çevirmir. Ümumiyyətlə, Sabir Azəri yaradıcılığında insana inam, xeyirin şərdən qüvvətli olmasına inam güclüdür.

Yazıçının "Dalanda" romanında baş verən hadisələr real həyatda baş verən hadisələrlə oxşarlıq təşkil edir, üst-üstə düşür. Diqqət çəkən bir məqam da odur ki, Sabir Azəri heç bir obraza ideal obraz donu geydirməyə çalışmayıb. Hər obrazda təbiiliyi, mənfi və müsbət cəhətlərin sintezini yaradıb. Məlumdur ki, romanda hər bir surət, personaj yalnız xarakteri, daxili dünyası ilə birgə iştirak etdikdə janr çoxsəslilik qazana bilir. Sabir Azəri nəinki hadisələrin yaratdığı ümumi atmosferi əks etdirə bilir, həmçinin təhkiyəni gah bir, gah digər surətin daxili aləminə kökləməklə hər bir personajın da xarakterini, fərdi taleyini diqqət mərkəzinə çəkməyə nail olur.

Sabir Azəri yaradıcılığının möcüzəsi ilə "Dalanda" romanında dövr üçün xarakterik olan problemlər bədii cəhətdən uğurlu həllini tapır. Digər əsərləri kimi, bu romanda da yazıçının baş qəhrəmanı psixoloji, ictimai, mənəvi yükün daşıyıcısı kimi çıxış edir. Sıxılıb qaldığı dalan belə Qafarın həyat prinsiplərinin, müdafiə etdiyi həqiqətin önünə keçə bilmir. Tək qalır, mübarizə aparır, lakin məğlub olmur. "Dalanda" romanını oxucusuna sevdirən cəhətlərdən biri də odur ki, əsər sanki bütün cəmiyyəti əks etdirir, oxucu bir qədər sonra mövzunun içinə dalır. Sabir Azərinin Qafar obrazı neçə-neçə Qafarların daxili səsinin, düşüncəsinin təcəssümü olur. Əsərin sonunda Qafar "dalan"ı tərk edərək doğulduğu məkana gedib azadlığına qovuşa bilirsə, demək, digər Qafarlar üçün də hələ gec deyil, bir ümid yeri var...

"Bədii fikrin strukturundakı, insana və həyata münasibətindəki əhəmiyyətli dönüş, irəliləyiş və keyfiyyət dəyişiklikləri müasir nəsrimizdə reallığın artması, şəxsiyyətə, onun psixologiyasına daha həssas münasibət, humanist idealın güclənməsi, münaqişələrin, problemlərin təsvirdə daha çox mənəvi-əxlaqi aləmə keçməsi, insanla mühit, cəmiyyət arasındakı qarşılıqlı əlaqələrin daha dərindən nəzərə alınması kimi ümumiləşdirilə bilər" (4, 30).

Cəmiyyət və insan problemi, cəmiyyətdə insan azadlığının məhdudlaşdırılması bütün zamanlar üçün problemli məsələ olmuşdur. Bu məqamdan çıxış edərək əminliklə söyləmək olar ki, bu məsələləri, problemləri, onlardan çıxış yollarını özündə əks etdirən "Dalanda" romanı və Sabir Azəri yaradıcılığı hələ bundan sonra da zirvədəki yerini qoruyub saxlaya biləcəkdir.

**Məqalənin aktuallığı.** Ədəbi nəsil baxımından "altmışıncılar" nəslinə aid olan Sabir Azəri ədəbiyyat tarixində özünəməxsus iz qoymağı bacaran bir yazıçı olmuşdur. Yaratdığı əsərlərlə daima ədəbi mühitin diqqət mərkəzində olan Sabir Azərini ötən əsrin 70-80-ci illərinin gəncliyi "Kar qaya", "Dalanda" povest və romanının müəllifi kimi tanıyırdı. Bu əsərlər ədəbiyyatımızın inciləri kimi qiymətləndirilirdi. Fərdi üslubu, yazı tərzi ilə bu gün də ədəbiyyat tariximizdə özünəməxsus yer tutan Sabir Azəri hadisələrə münasibətdə obyektivliyi ilə seçilmiş, şəxsi ləyaqətini qorumağa çalışmış, vicdanının və ürəyinin səsini dinləyərək yazıb-yaratmışdır.

**Məqalənin elmi yeniliyi.** Sabir Azəri əsərlərini qələmə alarkən obrazların həyat hekayələ-

rini ən incə detalına qədər düşünürdü, bunun nəticəsidir ki, oxucuda obrazların taleyinə maraq, problemlərə çıxış yolu axtarmaq istəyi yaratmağı bacarmışdır. Lakin zaman keçdikcə yazıçının əsərlərinə, oradakı mövzu və problemlərə münasibət də olduğu kimi qalmamış, düşüncə və fikirlər dəyişmişdir. Sabir Azəri "Darıxan şəhər", "Gecə məşəl yanır", "Duman çəkilir", "İlk təkan", "Günəşə sarı gedəndə", "Bozdağın nağılı", "Ölə bilməyən adam" povestlərinin, "Dalanda", "Sonsuzluq" romanlarının və çoxlu hekayələrin müəllifi kimi ədəbiyyatda önəmli yer tutmuşdur. Bu əsərləri isə birləşdirən ümumi cəhətlər vardır: həyat həqiqəti və bədii gerçəkliyin paralel inikası, düşündürücü problemlərin təsvirinin mövzu aktuallığından bir addım öndə durması, daxili psixoloji dramatizm, cəmiyyət hadisələrinin dərinliklərinə varmaq, ifadə imkanlarının genişliyi və s. Sabir Azərinin hekayə, povest və romanlarında ideyanın, obrazların xarakterinin açılmasında yaxından iştirak edən, onun nəsrini formalaşdıran faktorlardan biri təbiətlə cəmiyyətin vəhdətidir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə doktorantların, bakalavr və magistrantların elmi axtarışlarının qaynaqlarına çevrilə bilər.

## Ədəbiyyat

1. Nəbiyev B. Müasirlik və sənətkarlıq uğrunda. Bakı: Yazıçı, 1966, 127 s.
2. Paşayeva N. İnsan bədii tədqiq obyekti kimi. Bakı: "XXI" - Yeni Nəşrlər Evi, 2003, 255 s.
3. Sabir Azəri. Dalanda. Bakı: Yazıçı, 1984, 251 s.
4. Hüseynov Akif. Nəsr və zaman. Bakı: Yazıçı, 1980, 185 s.
5. www.kitabal.az
6. www.sherg.az
7.www.anl.az

**С.Б. Кязимова**

## Проблема национального характера в Азербайджанской лирической прозе

## Резюме

Хотя часть деятельности Сабира Азери восходит к советской эпохе, в его работах конъюнктуры не наблюдалось. Эта, одна из особенностей, которые породнила его читателям. Откладывать вызывающие мысли проблемы ради славы и заниматься актуальными проблемами, было против его творчества. Почти во всех его работах процессы, происходящие в обществе, ограничение частной жизни были определены как основная проблема, и были найдены решения.

Чудом творчества Сабира Азери в романе «В тупике» проблемы периода успешно решаются художественным образом. Как и в других произведениях, и в этом романе главный герой писателя выступает в роли носителя психологического, социального и духовного бремени. Все образы в работе были доведены до уровня художественного характера. В романе «В тупике» события рассматриваются с морально-психологического аспекта и сквозь призму природы-общества. В романе анализируются духовные, психологические и нравственные аспекты. Все это было выполнено без ущерба для жанровых особенностей произведения.

**S.B. Kazimova**

## National character in Azerbaijani lyrical prose

### Summary

Although a part of Sabir's work is about Soviet era, conjecture was not observed in his works. This was one of the features that made him closer to his readers. It was contrary to his style to choose topical matters over thought-provoking problems for the sake of fame. Almost in all his works the processes that had been in the society and the restrictions of private life were identified as the main problem, and attempted to be solved.

In the novel "Dalanda" the mainstream problems of the period have been successfully solved in an artistic way by means of miraculous work of Sabir Azeri. Like in other works of the writer, the protagonist of this novel also acts as a carrier of psychological, social and spiritual burden. All the characters of the novel have been described in the level of an artistic figure. In the "Dalanda" the events have been approached from the moral and psychological aspects, as well as, from the point of nature and society. All these moral, psychological and ethical sides have been analyzed, and all this was done without compromising the generic features of the work.

**Redaksiyaya daxil olub:** 21.07.2020